# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

***№ 325*** ***Bakı şəhəri, 5 sentyabr 2020-ci il***

***"Xüsusi təyinatlı yaşayış sahələrinin kirayə müqaviləsinin forması"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 80 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 370; 2012, № 1, maddə 32) ilə təsdiq edilmiş "Xüsusi təyinatlı yaşayış sahələrinin kirayə müqaviləsinin forması"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci bəndə və 2.4.8-ci yarımbəndə "məcburi köçkünlər" sözlərindən sonra "tərəfindən yaşayış sahəsinə görə haqqın ödənilməsi" sözləri əlavə edilsin.
2. 3.2-ci bəndə "məcburi köçkünlər" sözlərindən sonra "tərəfindən yaşayış sahəsinin saxlanması və təmirinə görə haqqın ödənilməsi" sözləri əlavə edilsin.
3. 5.4.2-ci yarımbəndə "məcburi köçkünlər" sözlərindən sonra "tərəfindən yaşayış sahəsinə görə haqqın ödənilməsi" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***